**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№340/4** **15 fevral 2022-ci il**

**“Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda”nın təkmilləşdirilməsi barədə**

Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.2.2-ci “Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda”nın təkmilləşdirilməsi” və Palatanın sədri tərəfindən 2021-ci il 30 dekabr tarixdə təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri arasında aparılmış onlayn sorğunun nəticələrinin tətbiqinə dair Tədbirlər Planı”nın 3-cü “Auditorların reytinqinin müəyyən edilməsi qaydaları”nın təkmilləşdirilməsi” bəndlərinin icrası ilə əlaqədar Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən təqdim edilmiş təkmilləşdirilmiş “Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda”nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda” təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının sədrinin 2022-ci il 10 yanvar tarixli 1/1 nömrəli sərəncamı ilə yaradılmış auditorların (auditor təşkilatlarının) reytinqlərinin müəyyənləşdirilməsi üzrə komissiyaya tapşırılsın ki, hər ilin nəticələrinə görə məlumatların təhlili və monitorinqi aparılmaqla “Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda”nın müddəaları nəzərə alınmaqla növbəti ilin mart ayının sonunadək Palata üzvlərinin reytinqlərinin müəyyənləşdirilməsi təmin edilsin və bu barədə təkliflər baxılmaq üçün Palatanın Şurasına təqdim edilsin.

3. Auditorlar Palatası Şurasının 2014-cü il 27 dekabr tarixli 259/4 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda” qüvvədən düşmüş hesab edilsin.

4. Palata sədrinin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bu qərarın və “Qayda”nın mətnlərinin Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti sistemi”ndə yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**